# PEŞƏ TƏHSİLİNDƏ İNGİLİS DİLİNİN FUNKSİONAL ROLU VƏ ESP YANAŞMASININ TƏTBİQİ PROBLEMLƏRİ



**Bənövşə Məmmədova,**
*Azərbaycan Dillər Universitetinin Tərcümə fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor*
*e-mail: benovshem.m@gmail.com*
*http://orcid.org/0000-0002-2578-1363*
*https://doi.org/10.30546/2706-7858.2026.2.3007*

**UOT:** 5714.01

**Xülasə**. *Məqalədə peşə təhsili kontekstində ingilis dilinin funksional rolu və xüsusi məqsədlər üçün ingilis dili (ESP) yanaşmasının tətbiqi problemləri araşdırılaraq müasir əmək bazarının tələbləri fonunda dil kompetensiyasının peşəkar inkişafda, kommunikativ fəaliyyətin təşkili və beynəlxalq əməkdaşlıqda rolu təhlil edilir. Tədqiqatda göstərilir ki, ənənəvi dil tədrisi modelləri peşəyönümlü kompetensiyaların formalaşdırılması üçün kifayət etmir və bu baxımdan ESP yanaşması daha effektiv metodoloji istiqamət kimi çıxış edir. Məqalədə, həmçinin ESP-nin tətbiqi zamanı yaranan əsas problemlər, müəllim hazırlığı, tədris materiallarının çatışmazlığı və proqramların uyğunlaşdırılması məsələləri təhlil olunur. Nəticə olaraq innovativ metodların tətbiqi və dil tədrisinin əmək bazarı ilə inteqrasiyası əsasında daha effektiv modelin formalaşdırılmasının zəruriliyi əsaslandırılır.*

***Açar sözlər:*** *peşə təhsili, ingilis dili, ESP, kommunikativ kompetensiya, əmək bazarı, innovativ metodlar.*
***Keywords:*** *vocational education, english language, ESP, communicative competence, labor market, innovative methods.*
***Ключевые слова:*** *профессиональное образование, английский язык, ESP, коммуникативная компетенция, рынок труда, инновационные методы, профессиональное развитие.*

Müasir qloballaşma şəraitində dil yalnız kommunikasiya vasitəsi kimi deyil, həm də sosial-iqtisadi inkişafın, elmi-texniki tərəqqinin və peşəkar fəaliyyətin əsas komponentlərindən biri kimi çıxış edir. Xüsusilə ingilis dili beynəlxalq elmi diskursun, texnologiyanın, iqtisadi münasibətlərin və peşəkar kommunikasiya mühitinin aparıcı vasitəsinə çevrilmişdir. Bu baxımdan peşə təhsilində ingilis dilinin rolu artıq köməkçi element deyil, funksional və strateji komponent kimi dəyərləndirilməlidir.

Əmək bazarında baş verən struktur dəyişiklikləri göstərir ki, müasir mütəxəssis yalnız ixtisas biliklərinə malik olmaqla kifayətlənmir, eyni zamanda xarici dildə, xüsusilə ingilis dilində

peşəkar ünsiyyət qurmaq bacarığına da sahib olmalıdır. Bu kontekstdə peşə təhsili müəssisələrində dil hazırlığının məzmununun yenidən nəzərdən keçirilməsi zərurəti yaranır. Belə ki, ənənəvi ümumi dil tədrisi modelləri müasir əmək bazarının tələblərinə tam cavab vermir və bu səbəbdən dil tədrisinin peşəyönümlü modellərə inteqrasiyası aktuallaşır.

Tədqiqatlar göstərir ki, ingilis dili bilikləri tələbələrə yalnız akademik mühitdə deyil, həm də peşəkar fəaliyyət sahəsində geniş imkanlar yaradır: texniki sənədlərin başa düşülməsi, beynəlxalq layihələrdə iştirak, peşəkar şəbəkələşmə və s. kimi imkanlar dil kompetensiyasının səviyyəsindən birbaşa asılıdır [1, s.344]. Bu baxımdan dil bilikləri əmək bazarında rəqabət qabiliyyətinin əsas göstəricilərindən birinə çevrilmişdir.

Tədqiqatın əsas aktual cəhətləri, həm də onunla şərtlənir ki, müasir peşə təhsili sistemində dil tədrisi ilə peşə hazırlığı arasında əlaqə hələ də tam sistemli şəkildə qurulmamışdır. Bu isə məzunların real iş mühitinə uyğunlaşmasında müəyyən çətinliklər yaradır. Xüsusilə texniki sahələrdə çalışan mütəxəssislər üçün terminoloji baza, peşəkar diskurs və kommunikativ strategiyaların mənimsənilməsi vacibdir ki, bu da yalnız xüsusi məqsədlər üçün dil tədrisi (ESP) vasitəsilə mümkündür.

Xüsusi məqsədlər üçün ingilis dili (ESP) anlayışı müasir dilçilik və metodika elmlərində geniş tədqiq olunan istiqamətlərdən biridir. ESP-nin nəzəri əsasları ilk dəfə sistemli şəkildə XX əsrin ikinci yarısında formalaşmış və sonrakı dövrlərdə müxtəlif tədqiqatçılar tərəfindən inkişaf etdirilmişdir.

Hutchinson və Waters ESP-ni dil tədrisinin öyrənənin ehtiyaclarına əsaslanan yanaşması kimi xarakterizə edərək qeyd edirlər ki, bu yanaşmada tədrisin bütün komponentləri, yəni məzmun, metod və materiallar konkret auditoriyanın tələblərinə uyğun müəyyənləşdirilir [3, s.19]. Bu fikir dil tədrisinin standart modellərdən uzaqlaşaraq daha çevik və məqsədyönlü qurulmasını əsaslandırır.

Dudley-Evans və St John ESP-ni yalnız metod deyil, həm də çoxşaxəli tədris sistemi kimi qiymətləndirərək onun müxtəlif sahələrdə, əsasən mühəndislik, biznes, tibb və s. tətbiq oluna biləcəyini vurğulayırlar [2, s.4]. Onların fikrincə, ESP-nin əsas üstünlüyü onun praktikyönümlü olması və real kommunikativ situasiyalara əsaslanmasıdır.

Swales janr nəzəriyyəsi çərçivəsində ESP-yə yanaşaraq göstərir ki, hər bir peşə sahəsinin özünəməxsus diskurs strukturu mövcuddur və dil tədrisi bu strukturların mənimsənilməsinə yönəlməlidir [9, s.58]. Bu yanaşma, xüsusilə akademik və peşəkar yazı bacarıqlarının inkişafında mühüm rol oynayır.

Hyland isə ESP-ni sosial-praktik kontekstdə araşdıraraq qeyd edir ki, dil yalnız struktur sistem deyil, həm də sosial fəaliyyət vasitəsidir və öyrənənlər dil vasitəsilə müəyyən peşə icmalarına inteqrasiya olunurlar [4, s.37]. Bu fikir dil tədrisinin yalnız qrammatik biliklərlə məhdudlaşmadığını göstərir.

Müasir tədqiqatlarda ESP-nin peşə təhsilinə inteqrasiyası xüsusi əhəmiyyət kəsb edir. Araşdırmalar göstərir ki, dil tədrisinin peşə hazırlığı ilə inteqrasiyası tələbələrin iş mühitinə uyğunlaşmasını asanlaşdırır və onların peşəkar kompetensiyasını artırır [7, s.76-43]. Bu yanaşma, xüsusilə peşə təhsili müəssisələrində effektiv hesab olunur.

Azərbaycan tədqiqatçıları da bu sahədə mühüm nəticələr əldə etmişlər. Müasir pedaqoji yanaşmalara əsaslanan tədqiqatlarda göstərilir ki, innovativ metodların tətbiqi tələbələrin kommunikativ bacarıqlarını inkişaf etdirir və onların dil öyrənmə prosesində aktivliyini artırır [5, s.61]. Bu isə ESP yanaşmasının tətbiqi üçün əlverişli şərait yaradır.

Peşə təhsilinin əmək bazarının tələblərinə uyğunlaşdırılması məsələsi də mühüm tədqiqat obyektidir. Müəyyən edilmişdir ki, dual təhsil sistemi, iş yerində təlim və işəgötürənlərlə əməkdaşlıq peşə hazırlığının keyfiyyətini artırır və məzunların məşğulluq imkanlarını genişləndirir [6, s.1].

Müasir əmək bazarında baş verən transformasiyalar göstərir ki, peşəkar fəaliyyət, artıq yalnız ixtisas bilikləri ilə məhdudlaşmır. Qlobal iqtisadi inteqrasiya, texnoloji inkişaf və informasiya axınının intensivləşməsi mütəxəssislərdən çoxşaxəli kompetensiyalar tələb edir. Bu kompetensiyalar içərisində xarici dil bilikləri, xüsusilə ingilis dili xüsusi yer tutur. İngilis dili




yalnız ünsiyyət vasitəsi deyil, həm də peşəkar fəaliyyətin təşkili, idarə olunması və inkişafı üçün funksional alətə çevrilmişdir.

İngilis dilinin peşəkar inkişafda rolu bir neçə əsas istiqamətdə özünü göstərir. İlk növbədə, bu dil ***informasiya əldəetmə*** vasitəsi kimi çıxış edir. Müasir elmi-texniki biliklərin böyük hissəsi ingilis dilində təqdim olunur. Texniki sənədlər, standartlar, elmi məqalələr və təlim materiallarının əksəriyyətinin ingilis dilində olması bu dili bilməyən mütəxəssislərin informasiya mənbələrinə çıxışını məhdudlaşdırır. Bu baxımdan dil bilikləri birbaşa peşəkar biliklərin genişlənməsi ilə əlaqəlidir. Aparılan tədqiqatlar göstərir ki, ingilis dilində biliyi olan tələbələr müasir texniki məlumatları daha sürətli mənimsəyir və peşəkar kompetensiyalarını daha effektiv şəkildə inkişaf etdirirlər [2, s.345].

İkinci mühüm istiqamət ***kommunikativ*** funksiyadır. Müasir iş mühitində beynəlxalq əməkdaşlıq geniş yayılmışdır və bu əməkdaşlıq müxtəlif ölkələrdən olan mütəxəssislərin birgə fəaliyyətini tələb edir. Belə şəraitdə ingilis dili ortaq kommunikasiya vasitəsi kimi çıxış edir. Mütəxəssislər layihələrdə iştirak etmək, texniki məsələləri müzakirə etmək, hesabatlar təqdim etmək və peşəkar əlaqələr qurmaq üçün bu dildən istifadə edirlər. Bu isə dil biliklərinin yalnız nəzəri deyil, həm də praktik səviyyədə formalaşdırılmasını zəruri edir.

Üçüncü istiqamət ***peşəkar mobilliklə*** bağlıdır. İngilis dili bilikləri mütəxəssislərə beynəlxalq əmək bazarına çıxış imkanı yaradır. Müasir dövrdə bir çox şirkətlər əməkdaşlardan xarici dilləri, xüsusilə ingilis dilini bilməyi tələb edir. Bu isə dil biliklərinin işə qəbul prosesində və karyera yüksəlişində həlledici rol oynadığını göstərir. Tədqiqatlar göstərir ki, ingilis dilində biliyi olan məzunların məşğulluq səviyyəsi daha yüksəkdir və onlar daha rəqabətqabiliyyətli hesab olunurlar [1, s.345].

İngilis dilinin funksional rolunu yalnız praktik aspektlərlə məhdudlaşdırmaq düzgün olmaz. Bu dil, həm də koqnitiv və sosial inkişaf vasitəsi kimi çıxış edir. Dil öyrənilməsi zamanı tələbələr yalnız leksik və qrammatik biliklər əldə etmir, həm də fərqli düşünmə modelləri ilə tanış olur, tənqidi təhlil bacarıqlarını inkişaf etdirir və müxtəlif mədəniyyətlər haqqında məlumat əldə edirlər. Hyland qeyd edir ki, dil öyrənilməsi prosesi sosial inteqrasiyanın və peşə icmalarına daxil olmanın mühüm vasitəsidir [4, s.37].

Müasir dil tədrisində ən mühüm istiqamətlərdən biri xüsusi məqsədlər üçün ingilis dili – ESP yanaşmasıdır. Bu yanaşma dil öyrənməni ümumi səviyyədən çıxararaq konkret peşə və ya akademik sahəyə uyğunlaşdırır. ESP-nin əsas məqsədi öyrənənləri real peşə mühitində istifadə edəcəkləri dil bacarıqları ilə təmin etməkdir.

ESP yanaşmasının əsas prinsiplərindən biri ehtiyacların analizi prinsipidir. Hutchinson və Waters qeyd edirlər ki, dil tədrisinin bütün komponentləri öyrənənin ehtiyaclarına əsaslanmalıdır [3, s.19]. Bu o deməkdir ki, tədris proqramı hazırlanarkən tələbələrin gələcək peşə fəaliyyəti, istifadə edəcəkləri terminologiya və kommunikativ situasiyalar nəzərə alınmalıdır.

ESP-nin digər mühüm xüsusiyyəti onun funksionalyönümlü olmasıdır. Ənənəvi dil tədrisində əsas diqqət qrammatik strukturların öyrədilməsinə yönəldiyi halda, ESP-də dil vasitə kimi çıxış edir və konkret məqsədlərə xidmət edir. Məsələn, mühəndislik sahəsində təhsil alan tələbələr texniki sənədləri oxumağı, diaqramları şərh etməyi və texniki hesabatlar yazmağı öyrənirlər. Bu isə dil bacarıqlarının real fəaliyyətlə əlaqələndirilməsini təmin edir.

Dudley-Evans və St John ESP-nin strukturunu müəyyənləşdirərkən onun dəyişkən və sabit xüsusiyyətlərini fərqləndirirlər [2, s.5]. Sabit xüsusiyyətlərə ehtiyacların analizi və məqsədyönümlülük aid olduğu halda, dəyişkən xüsusiyyətlər tədrisin konkret kontekstdən asılı olaraq dəyişə bilməsini əhatə edir. Bu isə ESP-nin çevik və adaptiv yanaşma olduğunu göstərir.

ESP-nin tətbiqində mühüm rol oynayan amillərdən biri də autentik materialların istifadəsidir. Real iş mühitindən götürülmüş materiallar, yəni texniki sənədlər, iş məktubları, təqdimatlar və s. tələbələrin dil bacarıqlarını daha effektiv şəkildə inkişaf etdirir. Bu yanaşma öyrənmə prosesini daha praktik və motivasiyaedici edir.

Müasir tədqiqatlar göstərir ki, ESP-nin peşə təhsilinə inteqrasiyası tələbələrin iş mühitinə hazırlığını əhəmiyyətli dərəcədə artırır. Belə ki, dil tədrisi ilə peşə hazırlığının paralel aparılması tələbələrin həm nəzəri, həm də praktik biliklərini inkişaf etdirir [5, s.7644].

ESP yanaşmasının nəzəri üstünlüklərinə baxmayaraq onun praktik tətbiqində bir sıra problemlər mövcuddur. Bu problemlər əsasən metodik, təşkilati və psixoloji xarakter daşıyır. İlk problem müəllim hazırlığı ilə bağlıdır. ESP tədrisi ümumi dil tədrisindən fərqli olaraq müəllimdən həm dil, həm də müəyyən sahə üzrə baza bilikləri tələb edir. Lakin mövcud təhsil sistemində müəllimlərin bu istiqamətdə hazırlığı kifayət qədər deyil. Bu isə ESP kurslarının effektivliyinə mənfi təsir göstərir. İkinci problem tədris materiallarının çatışmazlığıdır. Bir çox hallarda mövcud dərsliklər ümumi dil səviyyəsinə uyğun hazırlanmışdır və peşəyönümlü materialların sayı isə məhduddur. Bu isə müəllimləri əlavə materiallar hazırlamağa məcbur edir ki, bu da vaxt resurs baxımından çətinlik yaradır. Üçüncü problem tələbələrin dil səviyyəsi ilə bağlıdır. ESP kurslarının effektiv olması üçün tələbələrin müəyyən baza dil biliklərinə malik olması vacibdir. Lakin bir çox hallarda tələbələrin dil səviyyəsi aşağı olur və bu da peşəyönümlü materialların mənimsənilməsini çətinləşdirir. Dördüncü problem tədris proqramlarının uyğunlaşdırılması ilə bağlıdır. Peşə təhsili müəssisələrində dil tədrisi ilə ixtisas fənləri arasında əlaqə kifayət qədər güclü deyil. Bu isə ESP yanaşmasının tam şəkildə tətbiqinə mane olur.

Müasir təhsil sistemində innovativ tədris metodlarının tətbiqi dil öyrənmə prosesinin effektivliyini artıran əsas amillərdən biri kimi çıxış edir. Xüsusilə ESP yanaşması çərçivəsində ənənəvi metodlarla məhdudlaşmaq mümkün deyil, çünki bu yanaşma tələbələrin real peşə mühitinə hazırlanmasını nəzərdə tutur. Bu baxımdan interaktiv, tələbəyönümlü və praktikyönümlü metodların tətbiqi zəruri hesab olunur.

***Kommunikativ yanaşma*** (Communicative Language Teaching – CLT) ESP tədrisinin əsas metodoloji bazasını təşkil edir. Bu yanaşmada əsas məqsəd dilin real ünsiyyət şəraitində istifadə olunmasını təmin etməkdir. Tələbələr dialoqlar, müzakirələr və rollu oyunlar vasitəsilə dil bacarıqlarını inkişaf etdirirlər. Bu prosesdə dil yalnız struktur sistemi kimi deyil, kommunikativ fəaliyyət vasitəsi kimi öyrədilir [7, s.61].

***Tapşırıqəsaslı öyrənmə*** (Task-Based Learning – TBL) ESP üçün ən effektiv metodlardan biri hesab olunur. Bu metodda tələbələr real həyat situasiyalarına uyğun tapşırıqlar üzərində işləyirlər. Məsələn, texniki sahədə təhsil alan tələbələrdən texniki hesabat hazırlamaq, avadanlıq haqqında təqdimat etmək və ya iş görüşməsi simulyasiyası aparmaq tələb olunur. Bu yanaşma dilin praktik istifadəsini təmin edir və tələbələrin peşəkar kommunikasiya bacarıqlarını formalaşdırır.

***Layihəəsaslı öyrənmə*** (Project-Based Learning – PBL) isə daha genişmiqyaslı fəaliyyətləri əhatə edir. Bu metodda tələbələr müəyyən mövzu üzrə araşdırma aparır, məlumat toplayır və nəticədə təqdimat və ya yazılı hesabat hazırlayırlar. Bu proses təkcə dil bacarıqlarını deyil, həm də tədqiqat, analiz və təqdimat bacarıqlarını inkişaf etdirir.

***Texnologiyaəsaslı metodların*** tətbiqi müasir dövrdə xüsusi əhəmiyyət kəsb edir. Rəqəmsal platformalar və interaktiv proqramlar (Quizlet, Kahoot, Padlet və s.) tələbələrin motivasiyasını artırır və öyrənmə prosesini daha dinamik edir. Texnologiyanın tədrisə inteqrasiyası dil bacarıqlarının inkişafını sürətləndirir və fərdiləşdirilmiş tədris imkanları yaradır [7, s.62].

**Nəticə.** Müasir peşə təhsili sistemində ingilis dili artıq əlavə fənn kimi deyil, funksional və strateji əhəmiyyət daşıyan əsas komponent kimi dəyərləndirilir. Onun tədrisi tələbələrin peşəkar inkişafına, əmək bazarına inteqrasiyasına və rəqabət qabiliyyətinin formalaşmasına birbaşa təsir göstərir. ESP yanaşması bu prosesdə ən effektiv metodoloji istiqamət kimi çıxış edir. Bu yanaşma dil tədrisini konkret peşə sahəsinə uyğunlaşdıraraq tələbələrin real iş mühitinə hazırlanmasını təmin edir. Lakin ESP-nin tətbiqi ilə bağlı

mövcud problemlər müəllim hazırlığı, material çatışmazlığı və proqramların uyğunlaşdırılması bu prosesin tam effektivliyinə mane olur.

### İstifadə edilmiş ədəbiyyat

1. Chettiar S.F., Godwin K.C. Integrating ESP into vocational curriculum as a tool for workforce readiness. African Journal of Biomedical Research, vol.27, 2024, s.7643-7648.

2. Dudley-Evans T., St John M.J. Developments in English for Specific Purposes. Cambridge. Cambridge University Press, 1998, 301 p.

3. Hutchinson T., Waters A. English for Specific Purposes. Cambridge. Cambridge University Press, 1987, 183 p.

4. Hyland K. English for Academic Purposes: An advanced resource book. London. Routledge, 2006, 363 p.

5. İlyasov M.İ. Peşə, ixtisas seçimi. Bakı, "ADPU" nəşriyyatı, 2015, 100 s.

6. Quliyeva D.M. Xarici dil kimi ingilis dilinin tədrisində innovativ metodlar. Pedaqogika, 2018, s.61-65.

7. Mustafoyeva M. The role of English language in the professional development of technical college students. "Выпуск" журнала, №43, 2026, s.344-348.

8. Peşə təhsilinin əmək bazarının tələblərinə uyğun təşkilinin üstünlükləri. Bakı, 2020, 12 s.

9. Swales J. Genre Analysis: English in Academic and Research Settings. Cambridge, Cambridge University Press, 1990, 260 p.

**B.Mammadova**

### The functional fole of English in vocational education and the challenges of implementing the ESP approach

**Abstract**

The functional role of the English language in the context of vocational education and the challenges of implementing English for Specific Purposes (ESP) are examined, and, in light of the demands of the modern labor market, the role of language competence in professional development, the organization of communicative activity, and international cooperation is analyzed. Considering the demands of the modern labor market, the study analyzes the role of language competence in professional development, communication, and international collaboration. The findings indicate that traditional language teaching models are insufficient for developing profession-oriented competencies, whereas the ESP approach provides a more effective methodological framework. The article also identifies key challenges in ESP implementation, including teacher training, lack of specialized materials, and curriculum adaptation issues. As a result, the study emphasizes the necessity of integrating innovative teaching methods and aligning language education with labor market needs.

**Б.Мамедова**

### Функциональная роль английского языка в профессиональном образовании и проблемы внедрения подхода ESP

**Аннотация**

Исследуется функциональная роль английского языка в системе профессионального образования, а также проблемы внедрения подхода «английский для специальных целей» (ESP), и в условиях требований современного рынка труда анализируется роль языковой компетенции в профессиональном развитии, организации коммуникативной деятельности и международном сотрудничестве. С учетом требований современного рынка труда анализируется значение языковой компетенции в профессиональном развитии, организации коммуникации и международном сотрудничестве. Установлено, что традиционные методы обучения иностранному языку не обеспечивают формирование профессионально ориентированных компетенций, тогда как подход ESP является более эффективным. В статье также выявлены основные проблемы внедрения ESP: недостаточная подготовка преподавателей, нехватка специализированных учебных материалов и несоответствие учебных программ требованиям рынка труда. В заключение обосновывается необходимость применения инновационных методов и интеграции языкового обучения с профессиональной подготовкой.